Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
24 iyun 2021-ci il №43 (3698)


# Yazıçı, publisist, naşir: Qələmə sərf olunan ömür...

## Oqtay Ərgünəş Əliyev - 75

**Oqtay Əliyev Azərbaycanın cənnətməkan bölgələrindən biri olan Füzuli rayonunun 2-ci Mahmudlu kəndində doğulmuşdur. Ədəbi yaradıcılığa oxuduğu məktəbin yuxarı siniflərində başlamışdır. Sinəsində Azərbaycana sevgi dolu bir ürək gəzdirən Oqtay Əliyevin ilk qələm təcrübələri məqalə, mənsur şeir, hekayə və publisistik yazılardan ibarət olmuşdur.**

Əmək fəaliyyətinə Sumqayıt tikinti idarəsində fəhləliklə başlasa da, az sonra təhsilini davam etdirib şəhər apteklərinin birində eczaçı işləmişdir. Həmin illərdə idman yarışlarında ilk uğurlu addımlarını atsa da, Sumqayıt ədəbi mühitinin gənc qələm sahibləri ilə tanışlıqdan sonra o da həmin birliyin ümidverici gənclərindən biri kimi tanınmışdır. Tezliklə o, "Sosialist Sumqayıtı" qəzeti redaksiyasında işə qəbul edilmiş, yazıları ilə sumqayıtlıların sevimlisinə çevrilmişdir. Qələminin və davranış mədəniyyətinin nüfuz dairəsini genişləndirməklə yanaşı tibb sahəsində də ali təhsil almağa çox meylli idi. Lakin Sumqayıt ədəbi birliyinin aparıcı simalarından Xasay Cahangirov, Əşrəf Şəfiyev, Vaqif İbrahim, Fazil Cəbrayılov, Semyaz Günəşov və başqa qələm dostları onun geniş yaradıcılıq diapozonuna malik istedad sahiblərindən biri olduğunu nəzərə alıb sənədlərini BDU-nun jurnalistika fakültəsinə verməsini təkidlə tövsiyə edəndən sonra O.Əliyev belə də edir. O, sənədlərini jurnalistika fakültəsinə verir və ən yüksək balla tələbə olmaq şansı qazanır.

Gənc qələm sahibi kimi tanınan və sevilən O.Əliyev ali təhsilini bitirəndən sonra "Araz" Füzuli rayon qəzetinə işə göndərilir. Çox keçmədən ilk addımlarını atan həmin yeni nəşrin redaktor müavini vəzifəsi ona etibar edilir. Onun bu qəzetlə bağlı səmərəli fəaliyyəti (1968-1985) Azərbaycan Mətbuat və İnformasiya Nazirliyində yaxşı əks-səda doğurduğuna görə o, 1985-ci ildən Füzuli rayonlararası Birləşmiş Mətbəələr Birliyinin baş direktoru vəzifəsində çalışmışdır. Vətən torpaqlarının və dinc əhalinin mənfur erməni işğalçılarından qorunub saxlanmasında fəal iştirak etmişdir.

1997-ci ildən təcrübəli jurnalist dövrün yeni nəşrlərindən sayılan "Qayıdış" qəzetinin redaktoru, az sonra isə "Nigar-Ə", "Vüqar-Ə" nəşriyyat-poliqrafiya müəssisələrinin direktoru vəzifəsində işləmişdir. Gəncliyini, dincliyini, təşkilatçılıq bacarığını və istedadını mənsub olduğu xalqa həsr etmişdir.

*İllərlə olsa da ömür yorğunu,*
*Vicdanı düzlüyə kökləyib onu!*

Bu müxtəsər qeydlər Oqtay Əliyevin Füzuli şəhərində yaşadığı illərdə göstərdiyi qüsursuz fəaliyyətin unudulmaz səhifələridir. Həmin səhifələrin ləyaqətli davamı Bakı mühiti ilə bağlıdır. İşğalçı Ermənistan havadarlarının dəstəyi ilə Qarabağı qara günə qoyandan sonra ev-eşiyini, malını, mülkünü və zəngin kitabxanasını taleyin ümidinə qoyub, Azərbaycanın müxtəlif bölgələrinə və Bakıya pənah gətirən bir milyon qarabağlıdan biri də Əliyevlər ailəsi olmuşdur. Ailəsinə ləyaqətlə başçılıq edən O.Əliyev Bakıda məskunlaşdığı vaxtdan qələm yükünü də şərəflə daşımalı olmuşdur. Bakı ədəbi-mədəni mühitinin qaynar həyat tərzi ilə yaxından tanışlıq ona çox şey öyrətmişdir. Əlindən tutan ilk etibarlı, sədaqətli dostları: qələmi, istedadı, vətənpərvərliyi, sönməz vicdanı, dönməz qeyrəti və təşkilatçılıq bacarığı olmuşdur. Bu məziyyətlərin hər biri onun ömür yolunu nurlandıran məşəl qədər fəaliyyətində böyük rol oynamışdır. Bu məntiqin nəticəsidir ki, Ulu Öndər Heydər Əliyev tərəfindən cəsarətlə davam və inkişaf etdirilən, onun layiqli varisi İlham Əliyevin tükənməz istedadı, misilsiz təşkilatçılığı və müdrik siyasəti ilə gerçəkləşdirilən Azərbaycan siyasəti çoxsaylı qələm sahibləri kimi Oqtay Əliyevi də yeni-yeni uğurlara səfərbər etmişdir. O, Bakıda "Ərgünəş" NPM təsis edərək bu günə qədər onun direktoru kimi naşirlik fəaliyyətini yüksək səviyyədə davam etdirməkdədir. Hər il ardıcıl fəaliyyət göstərən "Ərgünəş" (Füzulidə əzəmətli dağ adıdır) 21 il ərzində Azərbaycan kitab mədəniyyəti fonduna yüz min nüsxələrlə kitab vermişdir. Bu nəşriyyatın qrifi ilə həyata vəsiqə almış ədəbi, elmi, siyasi, kütləvi nəşrlərin içində ensiklopedik nəşrlər də, çoxcildli çap məhsulları da, Heydər Əliyev və İlham



Əliyev siyasətinin məğlubedilməzliyini əks etdirən yüksək poliqrafik səviyyəli kitablar da, Qarabağ tarixinə və Azərbaycanın Milli Qəhrəmanlarına dair əsərlər də, tanınmış şəxsiyyətlərin şərəfli ömür yolunun mənzərəsini sərgiləyən çap məhsulları da əsas yer tutur.

**Xeyli yazıçı, jurnalist, alim, publisist, siyasətçi və s. ixtisas sahiblərinə qoynunu ana qucağı kimi geniş açmış "Ərgünəş"in məhsuldar müəlliflərindən biri də Oqtay Əliyevin özüdür. Döyünən ürəyi, düşünən beyni, görən gözü ilə Azərbaycan Prezidentinin daxili və xarici siyasət kursunu yaxından izləyən və mükəmməl mənimsəyən müəllifin maraqlı kitablarından "Əbədiyyətə qovuşan Koroğlu"dur. Kitab Azərbaycanın Milli Qəhrəmanı Koroğlu Rəhimovun mənalı ömür yoluna həsr edilmiş və "2009-cu ilin ən yaxşı kitabı" nominasiyasına layiq görülmüşdür.**

Yazıçının uğura doğru inamlı addımlar atmaq səyləri digər söz çələnglərində də aydın görünür. "Ətirli keçən zəhmət illəri", "Zakir Zeynalov fenomeni", "Seyid Əşrəf müqəddəsliyi", "Qum saatı", "Sözün qüdrəti, kəlamın hikməti" və s. kitablarında da ədəbi, elmi, siyasi, dini, mədəni həqiqətlərin qoyuluşunda və həllində nəzərə çarpan yanlışlıqlara qarşı yazıçı etirazı geniş yer tutur. Müəllif söz silahına nişangah seçdiyi hədəflərin mənəvi səddini yazmağa çalışarkən satiranın gücünə bel bağlasa da, boz sözdən daha çox inandırıcı sözə üstünlük vermişdir.

"Səmərəsiz insan söyüd ağacına da dəyməz" deyən yazıçının kitab müsahiblərini sağlam düşüncəyə köklənmək istəyi də bu həqiqəti aydın göstərir. Müəllifin "Böyük günah", "Təzadlı dünya", "Boş qalan papaqlar", "Zəng" və s. əsərləri bu istiqamətdəki səylərin uğurlu nümunəsi kimi fərəh doğurur. Saçlarını zaman, üzünü zəhmət ağardan yazıçı-jurnalist Oqtay Əliyev kitablarına simvolik ad seçməklə həmvətənlərimizi həyatın inkişafına mane olan əqidə nişangahlarına qarşı mübarizəni gücləndirməyə və səmərəli nəticəyə doğru inamlı addımlar atmağa ruhlandırmaq məqsədini izləmişdir. O, bu kitablarında və digər əsərlərində belə bir mütərəqqi ideyaya söykənir ki, ululanmız "Qazan qapaqsız, kişi papaqsız olmaz" deyələr də, qeyrət sahibi papaqla yox, sağlam düşüncə ilə tanınmalıdır. Bu o deməkdir ki:

*Bir qeyrət timsalı olsa da papaq,*
*Ağıldır, bilikdir papaqdan qabaq!*
*İçi çürük qoza bənzəyən başa,*
*Nə lazım ya ləçək, ya da ki, papaq?!*

İnsanın qızı da bənzəyər yaza; yaxşı oğlu, qızı, xanımı olsa! Bu mənada Oqtay müəllim qələmini də, ailəsini də əlində bərk saxlayan ziyalıdır. Hər ikisi ana Vətənimiz Azərbaycan qədər ona doğma və əzizdir. O yaxşı bilir ki, qələmə sərf olunan ömür də Vətənə xidmət nümunəsidir. Bu həqiqəti nəzərə alan Oqtay Əliyev ailəsinə də, qələminə də ömrünü nizamla elə xərcləyir ki, Vətənə sərf etdiyi ömür payı tükənməsin. 30 il ərzində tez-tez bir neçə qələm dostu və Müdafiə Nazirliyinin əməkdaşı ilə cəbhə bölgələrinə səfər edib, əsgərlərə və zabitlərə vətənpərvər ruhlu kitablar hədiyyə etməsi də Azərbaycana tükənməz sevgisinin pozulmaz izlərindəndir. O, Birinci Qarabağ müharibəsindən üzü bəri əsərlərində, radio və televiziya verilişlərində, habelə əsgərlərlə keçirdiyi silsilə görüşlərdə qətiyyətli mövqe sərgiləməyə çalışsa da, Qarabağın 30 illik işğal ağrısı təkcə ürəyindən yox, əsərlərindən də qırmızı xətt kimi keçib. Bu müddət ərzində onun nə ürəkdən güldüyünü, nə də təbəssümlü bir şəklini görməmişəm. İşğalçı Ermənistanın mənfur əməlləri onu dəfələrlə haldan-hala salıb, qəlbində və beynində dərd yuvası qursa da, dodaqlarının gülüşünü, üzünün təbəssümünü, ürəyinin sevincini əlindən alsa da, Qarabağın doğma sahiblərinin üzünə güləcəyi günə güclü inamını ala bilməmişdir. Qalib Ali Baş Komandanımızın müdrik siyasəti, Qalib Ordumuzun, qardaş Türkiyəmizin dəstəyi ilə qara günlü Qarabağ ağ günlərə çıxandan sonra 75 yaşlı yazıçının arzuları çiçək açmışdır.

**Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağın xoşbəxt gələcəyinə doğru bir-birindən cəsarətli addımlar atdığı bir dövrdə nəşr edilib geniş yayılmış iri həcmli "Heydər Əliyev və Azərbaycan Milli Qəhrəmanları - "Müqəddəs amal", ABŞ-ın "Charleston" nəşriyyatında ingilis dilində çap olunmuş "Hourglass" və s. dəyərli kitabları da ona böyük şöhrət qazandırmışdır.**

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Əziz Mir-Əhmədovun vəfatından sonra işıq üzü görmüş "Azərbaycan jurnalistləri və naşirləri" (2013), professor Teymur Əhmədovun "Azərbaycan yazıçıları XX-XXI yüzilliklərdə" (2004, 2011) ensiklopediyalarında O.Əliyevin ömür yoluna dair əhatəli oçerklər yer almışdır. Müasirləri onun həyatı və yaradıcılığı haqqında şeirlər, məqalələr, kitablarına müqəddimə yazmış, yazıçıya yaradıcılıq uğurları arzulamışlar. Müxtəlif illərdə Atatürk Mədəniyyət Mərkəzində, Azərbaycan Yazıçılar Birliyində, Mətbuat Mərkəzində, bir neçə orta məktəb və kollecdə keçirilmiş yaradıcılıq gecələrində yazıçılar, alimlər, müəllimlər, gənclər müəllifin məziyyətlərindən danışarkən onu yorulmaz qələm sahibi, təmkinli araşdırıcı, bacarıqlı naşir, xeyriyyəçi insan, vətənpərvər ziyalı, gözəl ata və fədakar baba kimi dəyərləndirmişlər. Oqtay Ərgünəş Əliyevin keçdiyi həyat yoluna güzgü tutan "Çinarlaşan ömür" (2015) kitabında toplanmış ürək sözləri də eyni səmimiyyətlə qələmə alınmışdır.

Pedaqoji elmlər doktoru, professor Allahverdi Eminov "Oqtay Əliyevin yaradıcılıq yolu: nəşri və publisistikası" (2015) monoqrafiyasında yazıçı irsinə alim münasibətinin və sevgisinin vəhdəti əsas yer tutur. Düşüncələrini əvvəlcə ürəyinə hopduran, sonra beyin adlı fikir laboratoriyasında müayinədən keçirən, ən sonda isə qənaətlərini söz süzgəcinin səlahiyyətinə verən alim görkəmli yazıçının qələm təcrübələrindən iki cildlik "Seçilmiş əsərləri"nə qədər gün işığına çıxan və ona həsr edilmiş əsərləri elmi tədqiqata cəlb etmişdir. Azərbaycan kitab mədəniyyəti xəzinəsinə töhfə olan bu dəyərli tədqiqat əsərində istedadının gücünə və tükənməz işığına söykənən görkəmli alim elmi və bədii boyalarla Oqtay Əliyevin portret cizgilərinin görüntüsünü söz fırçasının naxışları ilə elə rəsm etmişdir ki, nə özü, nə sözü oxucu qınağına tuş gəlməsin.

**Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvü, Prezident təqaüdçüsü, Beynəlxalq Rəsul Rza mükafatı laureatı, "Qızıl qələm" və Nəsir İmanquliyev diplomlarını almış, çoxsaylı mükafatların və təltiflərin sahibi Oqtay Ərgünəş Əliyev iki dəfə Lenin ordenli, Sosialist Əməyi Qəhrəmanı - Qarabağın məşhur zəhmət adamı Bəndalı Əliyevin (1911-1985) yadigarıdır. Belə bir fədakar zəhmət adamının başçılıq etdiyi kollektivlərdən altı nəfərin Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi dövrünün nadir və əlamətdar hadisələridir. Onun verdiyi mükəmməl tərbiyənin nəticəsidir ki, Oqtay Əliyev atasına və Vətəninə layiq övlad olduğunu əməli fəaliyyəti ilə doğruldaraq şərəfli ömür yolu keçmişdir. Bu yüksəlişi müəllimlərinin və atasının qoyduğu etibarlı təməlin layiqli davamı hesab etmək daha doğru olar. Ata yadigarının dövləti - övladları, nəvənəticələridir, sərvəti - yazdığı kitablardır. Bu nəsildən hələ neçəneçə dövlət və sərvət sahibləri çıxacaq, Qalib Prezidenti, Qalib Xalqı və müzəffər Ordusu olan dünya şöhrətli Azərbaycana övladlıq borcunu ləyaqətlə ödəyəcəkdir.**

**İmaməddin ZƏKİYEV,**
**Filologiya elmləri doktoru**